**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 003/254**

**Bakı şəhəri** **“23” yanvar 2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı (ÜHST) Amerika Birləşmiş Ştatlarının, Toqo Respublikasının, Rusiya Federasiyasının və Serbiya Respublikasının bəzi inzibati ərazi vahidlərində qeydə alınmış yüksək patogen quş qripi, Nyukasl və blutanq xəstəliklərinin aradan qaldırılması barədə 2021-2022-ci illərdə rəsmi məlumatlar açıqlanmışdır.

Belə ki, qeyd olunan ölkələrin bəzi inzibati ərazi vahidlərində ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, yüksək patogen quş qripi, Nyukasl və blutanq xəstəliklərinin ləğv edilməsindən sonra gözləmə müddəti başa çatmış və bu xəstəliklərə görə epizootik sağlamlıq statusu bərpa olunmuşdur.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adları çəkilən ölkələr üzrə tətbiq edilmiş bəzi məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi” nəzərə alınaraq, Agentliyin müvafiq qərarları ilə yüksək patogen quş qripi, Nyukasl və blutanq xəstəlikləri üzrə adları sadalanan ölkələrin bəzi inzibati ərazi vahidlərinə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.1.1.** 2021-ci il 5 iyul tarixli 039/134 nömrəli qərarla Toqo Respublikasının Maritaym (Maritime) vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.2.** 2022-ci il 12 aprel tarixli 023/198 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Nyu-York (New York) ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.1.3.** 2022-ci il 21 oktyabr tarixli 060/235 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Kentukki (Kentucky) və Arkansas Arkansas ştatlarına tətbiq edilmiş məhdudiyyət.

**1.2. Nyukasl xəstəliyi üzrə:**

**1.2.1.** 2021-ci il 17 sentyabr tarixli 055/150 nömrəli qərarla Rusiya Federasiyasının Primorski (Primorsky) diyarına tətbiq edilmiş məhdudiyyət.

**1.3. Blutanq xəstəliyi üzrə:**

**1.3.1.** 2020-ci il 2 noyabr tarixli 71 nömrəli qərarla Serbiya Respublikasının Raşka (Raska) və Rasina (Rasina) əyalətlərinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**